# Uşaqlığı olmayan sənətkar

## Yalçın Rzazadə: "Atam 4 il elə bildi ki, Politexnikdə oxuyuram"

**Azərbaycan səhnəsinə ilk dəfə gitara ilə çıxan müğənni olub. Geyimi, səsi, ifası da həmkarlarından fərqlənib. Onu Azərbaycan tamaşaçısına tanıdan 1960-cı illərin sonunda musiqisi Cahangir Cahangirova aid "Durnalar" mahnısıdır. Tofiq Quliyev, Emin Sabitoğlu, Cahangir Cahangirov, Oqtay Kazımi, Telman Hacıyev, Elza İbrahimova, Oqtay Rəcəbli, Ramiz Mirişli kimi əfsanəvi bəstəkarlarla işləyib. İllər sonra özü də əfsanəvi sənətkara çevrilib. Gənclərimizin bir çoxu toya onun "Dədə Qorqud" filmində ifası ilə ölməzlik bəxş etdiyi "İncə bellim" mahnısı ilə daxil olur.**

Müsahibimiz adını qızıl hərflərlə Azərbaycan musiqi mədəniyyətinə, incəsənətinə yazmış sənətkar, Mədəniyyət və İncəsənət Universitetinin estrada musiqi kafedrasının müdiri, xalq artisti, professor, sevə-sevə dinlədiyimiz və səsindən doymadığımız Yalçın Rzazadədir.





### "BALIQ SATIR, YEŞİK MIXLAYIRDIM"

1946-cı ildə Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Ailədə 3 övladın ortancılı olub. Müsahibimiz atası İmranın əsl kommunist olduğunu deyir. Atası Lerikin katibi, sonra Lənkəranın birinci katibi, daha sonra Astarada, Salyanda vəzifələrdə çalışıb: "Biz də zabit ailəsi kimi onunla birlikdə rayonları gəzirdik. Amma əsas məkanımız Bakıdakı baba mülkümüz idi. Üçüncü sinfə kimi Bakıda oxumuşam, sonra müxtəlif rayonlarda məktəbə getmişəm. 10-cu sinfi Lənkəranda bitirmişəm".

Atası Lənkəranda birinci katib işləyəndə orta məktəbin aşağı siniflərində oxuyan həmsöhbətimiz sovxozda xiyar, pomidor yeşiklərini mıxlayır, pul qazanırdı: "Bəzən çəkic əlimə dəyir, mismar ayağıma batırdı. Amma işləməkdən əl çəkmirdim. Axşam evə qayıdanda qazandığım pulla yeşiyə bir az kələm, xiyar-pomidor alıb qoyar, üstünü mıxlayıb çiynimdə kiçik bazardan böyük bazara daşıyır, satırdım. Mənim yeşik mismarladığım yolun əks tərəfində balıqçılar var idi. Balıq dolu qayıqlar sahilə yan alanda ipi dartırdılar ki, qayıq kənara çıxsın. Mən də qaçıb kömək edərdim. Sumkama 4-5 balıq atardılar. Balığın 2-3-nü bazarda satar, qalanını evə aparardım. O vaxt karton qablarda iris satardılar. Ağzı açıq olanda iyi ətrafa yayılırdı. Ürəyim gedirdi ki, ondan heç olmasa, bir dənə alım. Amma əlimdəki pula baxır, evdə bu pula daha çox ehtiyacın olduğunu düşünürdüm. Beləcə, hər dəfə iris satılan yerin yanından düz keçirdim".

Atası heç vaxt ona işləməyi ilə bağlı bir söz deməyib: "Sadəcə, ailəmizdə vəziyyətin çətinliyini, qazandığım pula ehtiyac olduğunu görürdüm. Atam həddindən artıq təmiz adam idi, "quru" maaşa baxırdı. Buna görə işləmək məcburiyyətində idim. Bəzən atamın dostlarının biri quş, balıq, digəri un, yağ gətirirdilər ki, ailəmiz ac qalmasın. Atam bu gün işdən çıxanda sabahısı yaşamaq üçün imkanımız olmurdu".

### ƏMƏKDAR ARTİSTİN OYUNCAQ HƏVƏSİ

Bu baxımdan uşaqlığının olmadığını deyir: "Artıq əməkdar artist idim, müxtəlif ölkələrə qastrol səfərlərinə gedirdim. Getdiyim bütün ölkələrdən oyuncaq almağı sevirdim. Həmkarlarım həmişə maraqla niyə pulumu oyuncaqlara verdiyimi soruşurdular. Oyuncaqlarla yaşadığımı bildirirdim. Bütün oyuncaqları evdə şkafa düzür, çətin vaxtlarımda oyuncaqlara baxır, ən əsəbi vaxtımda belə sakitləşirdim. Müxtəlif ölkələrdən oyuncaqlar almağımın, oyuncaqlara baxanda sakitləşməyimin səbəbini illər sonra başa düşdüm. Bu nəticəyə gəldim ki, mənim uşaqlığım olmayıb".

### ANAM KİTAB OXUMAQDAN BAŞIMIN XARAB OLACAĞINI DEYİRDİ

Atasının işi ilə əlaqədar orta məktəbdə müxtəlif rayonlarda təhsilini davam etdirsə də, işləsə də, bu, onun oxumağına təsir etməyib: "Orta məktəbdə bir sinfi əlaçı, digərini orta səviyyədə oxuyurdum. Yəni, əlaçı olmaq mənim öz istəyimə bağlı idi. Uşaqlıqda çox kitab mütaliə edirdim. Anam həmişə deyirdi ki, kitab oxumaqdan başın xarab olacaq. Belə deməsinə baxmayaraq, kitabları mənim üçün anam tapırdı".

Orta məktəbdə keçirilən tədbirlərdə də fəal iştirak edir: "Özümü tanıyandan cingiltili səsim var idi. Məktəbdə tədbirlər olanda orada nömrə bir idim. Konsertlərdə oxuyurdum. Həm də divar qəzetlərində redaktor olurdum. Yaxşı rəsm çəkmək qabiliyyətim var idi. Buna görə atam mənimlə düz gəlmirdi".

Balaca vaxtından təbiəti sevdiyini deyir: "Hərdən ağaca çıxar və arzulayardım ki, burada balaca bir yuvam, evim olsun. Ağacda oturub göyə baxmağı xoşlayırdım. Öz aləmimdə buludlardan ayı düzəldərdim".

### İLK GEYİM ZÖVQÜ

İlk geyim zövqünü ona anası aşılayıb: "Anam çox gözəl və xanım-xatın qadın idi. Ömrümdə eşitmədim ki, anam səs tonunu bir balaca yüksəltsin. İlk geyim zövqünü anamdan öyrənmişəm. Novruz Bayramında və Yeni ildə səhərlər duranda yastığımızın altında hədiyyə olardı. Anam bu bayram günlərində həmişə bizə geyim alardı - kasıb olanda kasıbyana, imkan olanda daha yaxşı... Amma hər iki halda çox zövqlü geyimlər olardı. İndiyə qədər hərdən çaşıram. Elə bilirəm yenə yuxudan duranda yastığımın altından hədiyyə tapacağam...".

Anası ilə yanaşı, oxuduğu əsərlər də Y.Rzazadənin geyim zövqünün formalaşmasına təsirsiz ötüşməyib: "Ən çox sevdiyim kitablar qızıl dərililərlə bağlı əsərlər idi. Bu da indiyə qədər sənətimdə, geyimimdə özünü göstərir. Sənətə ilk addımlarımı atanda qızıldərililər gödəkcə, şalvar, köynək geyinir, kavboy şlyapası qoyurdum".

### "ATAM ELƏ BİLİRDİ POLİTEXNİKDƏ OXUYURAM"

Orta məktəbi bitirəndə aktyorluq sevdası ilə sənədlərini indiki Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsinə verir. Hündürboy, yaraşıqlı oğlan çiynində italyan gitarası qəbul imtahanına girir. İstedadı da yerində. Onu universitetə qəbul edirlər. Amma atasının düz 4 il xəbəri olmur ki, oğlu Mədəniyyət və İncəsənət Universitetində oxuyur. Elə bilir ki, övladı o vaxt dəbdə olan Politexnik İnstitutunda (indiki Texniki Universitet - L.M.) təhsil alır: "Ömrümdə bir dəfə atama yalan dedim. Buna görə indi də hərdən vicdan əzabı çəkirəm. Atam mən universiteti bitirənə yaxın harada oxuduğumu bildi. Yalan danışdığımı biləndə mənə bir şillə vurdu. Acıq edib jurnalist dostum Vəli Osmanovgildə qaldım. Kasıbçılıq idi. Hər gün konserv alıb yeyirdik. Təqaüdlə dolanırdım. 10 gün orada qaldım. 10 gündən sonra məni universitetdə aşağı çağırdılar. Anam gəlmişdi. Ağlayırdı. Beləcə, evə qayıtdım. Atam hörmətimin, istedadımın olduğunu, yavaş-yavaş məşhurlaşdığımı görəndə sənətimi qəbul etdi".

### TƏLƏBƏ SOLİST

İncəsənət Universitetində təhsil alanda Azərbaycan Dövlət Teleradio Komitəsinə işə daxil olur və rejissor köməkçisi kimi yarımştat əmək fəaliyyətinə başlayır: "Düşünürdüm ki, televiziyada qalıb rejissor olaram. Yəni aktyor olmaq fikrim yox idi. Orada işləyə-işləyə orkestrlərlə, müğənnilərlə, bəstəkarlarla tanış oldum. Teleradio Komitəsində çalışdığım illərdə "Dan ulduzu" ansamblının rəhbəri Gülarə Əliyeva məsləhət gördü ki, belə bir səs diapozonu ilə mütləq təhsilimi konservatoriyada davam etdirməliyəm. Elə də etdim. Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsinə daxil oldum. Konservatoriyada oxuyanda Filarmoniyadakı konsertlərin birində iki mahnı ilə çıxış etdim. Konsertdən iki gün sonra məni Mərkəzi Komitəyə çağırdılar. Mərkəzi Komitənin ideologiya şöbəsinin rəhbəri Danil Quliyev məni qəbul etdi. Səsimi təriflədi. Mənimlə maraqlandı. İşləmək istədiyimi bildirdim. Çünki 19 yaşımdan ailə qurmuşdum. Azərbaycan Teleradio Komitəsinə zəng etdi və mənim solist kimi işə qəbul olmağıma kömək etdi. Konservatoriyanın 3-cü kursundan artıq Azərbaycan Teleradio Komitəsinin solisti idim".

### "GƏMİ YADINDADI?"

Həm işləyir, həm də oxuyur. Ömrü boyu ailəsini alnının təri ilə dolandırır: "Bu günə qədər məni həyatda heç nə sındırmayıb. Uşaqlıqda keçdiyim həyat məni çox möhkəmləndirdi".

Sənətə gəldiyi ilk illərdə haqsızlıqlarla qarşılaşsa da, yoluna davam edir: "Bir dəfə nümayəndə heyətinin tərkibində Neft Daşlarında konsert verməyə getmişdim. Bütün sənətkarlar gəmidə idilər. Gəminin bir tərəfində durub qəmgin-qəmgin dənizə baxırdım. Məni çox sıxışdırırdılar. Fikirləşirdim ki, nə qədər əziyyət çəkmək olar - uşaqlığım belə, gəncliyim belə. Tofiq Quliyev oturub çörək yeyirdi. Məni yanına çağırdı, qar-



şısında oturdub nə olduğunu soruşdu. Dedim ki, "bilmirəm, nə etmişəm ki, həmişə problemlə qarşılaşıram". Dedi ki, "mənim əzizim, sən öz mədəniyyətinlə, istedadınla dövrü bir az qabaqlamısan, hər şey gəlib öz yerini tutacaq". Tofiq Quliyev həyatdan getməmişdən təxminən 3-4 il qabaq idi. Tədbirlərinin birinə o da dəvətli idi. Yaxşı yeriyə bilmirdi, qoluna girmişdilər. Qapıdan içəri girəndə irəli gedib onunla görüşdüm. Yavaşcadan soruşdu ki, "gəmi yadındadı". "Ölənə qədər yadımdan çıxmaz",- dedim. Qayıtdı ki, "indi sənin vaxtın gəlib çatıb".

### TƏKCƏ SƏS HEÇ NƏDİR

Sonda əfsanəvi sənətkarımızdan dərs dediyi tələbələr barədə soruşduq: "Tələbələrin arasında razı olduqlarım da, olmadıqlarım da var. Həmişə onlara deyirəm ki, səs Allah vergisidir. Amma təkcə səs heç nədir. Onun yanında böyük zəhmət olmalıdır. Bununla da iş bitmir. Zəhmətin yanında ağıl da olmalıdır. Zəhmətlə və ağılla Allahın verdiyi səsi istifadə etməlisən".

**Lalə MUSAQIZI**